

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 oktyabr 2022-ci il №84 (2695) https://mod.gov.az Qiyməti 30 qəpik


*Təlim*

## Döyüş hazırlığı zəfər müjdəçisidir



Payız fəslinin gözəl günləridir. Günləri, fəsilləri gözəlləşdirən, ona məna verən gördüyün, şahidi və iştirakçısı olduğun fərəh dolu hadisələrdir. Ürəyindən xəbər verən, ovqatına ovqat qatan hadisələrlə qarşılaşanda ömrün günləri, anları daha da mənalı olur. "N" hərbi hissəsində artilleriyaçıların təlim-məşqlərini izləyə-izləyə gözəl bir gün yaşayırıq. Ürəyimiz qürurla dolur, qəlbimiz cuşa gəlir, günümüz daha da gözəlləşir.

Tapşırıqları yerinə yetirən heyət nəfərlərinin cəld və çevik hərəkətləri peşəkarlıqlarından xəbər verir. Əsgərlər üzərlərinə düşən tapşırıqları bacarıqla, tələb olunan səviyyədə yerinə yetirirlər. Artilleriyaçılar gələcəkdə qazanacaqları qələbələrin bünövrəsini bu günlər keçirilən məşğələlərdə qoyurlar. Təbiidir ki, uğurla başa çatan təlimlər sabahkı zəfərlərin qapısını daha da geniş açır. Hiss edirsən ki, təlim keçən əsgərlərin simasında qalib ordunun əsgəri olmağın məğrurluğu var. Əminliklə demək olar ki, bu məğrurluqdan doğan inam onlara böyük uğurlar, zəfərlər qazandıracaq.

Döyüşlərdə artilleriyanın, artilleriyaçının rolu, xidməti əvəzsizdir, danılmazdır. Müharibədə zəfərin qazanılmasını təmin edən başlıca vasitələrdən biri də artilleriyadır. İkinci Qarabağ müharibəsində artilleriyaçılarımız böyük igidlik, qəhrəmanlıq göstərdilər. Dəqiq atəş zərbələri ilə erməni işğalçılarının həm canlı qüvvəsini, həm də zirehli texnikalarını məhv etdilər. Bugünkü artilleriyaçılar sələflərinin xidmət yolunu şərəflə davam etdirirlər. Artilleriya qurğularının sirlərini dərindən və həvəslə mənimsəyirlər.

Təlim keçən topçuların cəld və çevik hərəkətlərini izləyirik. Əsgərin döyüş hazırlığının yüksək səviyyədə olması hərəkətlərindən hiss olunur. Məşğələ zamanı heyət nəfərlərinin peşəkarlıqları diqqətimizdən yayınmır. Əsgərlər komandirin məşğələnin mövzusuna uyğun olaraq verdiyi tapşırıqları ustalıqla icra edirlər. Bax bu cür hazırlıqlı, bacarıqlı əsgərlər sabah döyüş meydanlarında düşmən hədəflərini də dəqiq və vaxtında vuracaq, daim uğur qazanacaqlar.

Fasilədə mayor İlkin Allahverdiyev əsgərləri haqqında xoş sözlər deyir: “Şəxsi heyət təlimlər zamanı hərbi bilik və döyüş vərdişlərini dərindən mənimsəməyə çalışır. Onlar məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edirlər. Arxada qalan müddət ərzində əsgərlərimiz dərs və məşğələlərdə döyüş vərdişlərini mükəmməl mənimsəyiblər. Bunu əməli məşqlərdə biz açıq-aydın görürük. Hərbi hissəmizin şəxsi heyəti 44 gün ərzində ordumuzun üstünlüyü ilə davam edən İkinci Qarabağ müharibəsində üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldi. Artilleriyaçılarımız böyük məharət göstərərək dəqiq atəş zərbələri ilə ermənilərin atəş nöqtələrini və zirehli texnikalarını məhv etdilər. Hərbi hissəmiz Ağdam rayonu və Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində vuruşurdu.

**(Ardı 3-cü səhifədə)**

## Raket və Artilleriya Qoşunlarında komanda-qərargah təlimi keçirilib



2022-ci ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının “N” hərbi hissəsində komanda-qərargah təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq "Həyəcan" siqnalı ilə qaldırılan bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq atəş mövqelərini tutublar.

Təlim zamanı bölmələrin cavabdehlik zonasına sızmış şərti düşmən diversiya qrupunun təxribatlarının qarşısının alınması, onların zərərsizləşdirilməsi üzrə fəaliyyətlərin planlaşdırılması və idarə olunması tapşırıqları icra olunub.

Bundan başqa, strateji əhəmiyyətə malik mövqelərin ələ keçirilməsində ümumqoşun bölmələrə atəş dəstəyi, eləcə də müxtəlif təlim-döyüş tapşırıqları yerinə yetirilib.



Təlimin keçirilməsində əsas məqsəd hərbi hissənin döyüşə hazırolma vəziyyətinə gətirilməsi zamanı qərargahın fəaliyyətini və qarşılıqlı əlaqəni təkmilləşdirmək, eləcə də komandirlərin döyüşdə bölmələri idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaqdır.

Təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra edilib.

## Milli Müdafiə Universitetinin rəhbər heyəti Gürcüstanda elmi-praktik konfransda iştirak edib



Milli Müdafiə Universitetinin rektoru, professor general-leytenant Heydər Piriyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanın Qori şəhərində "NATO prioritetləri və Cənubi Qafqaz - status-kvo və dəyişikliklər" mövzusunda keçirilən elmi-praktik konfransda iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Gürcüstanın David Ağmaşenebeli Milli Müdafiə Akademiyasında təşkil olunan konfransda general-leytenant H.Piriyevin "İkinci Qarabağ müharibəsinin hərbi aspektləri" mövzusunda çıxışı iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Konfrans zamanı Azərbaycan Ordusunun digər nümayəndələrinin də müxtəlif mövzularda əyani və virtual çıxışları dinlənilib.



## Xarici dövlətlərin hərbi attaşeləri hərbi liseydə olublar



Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlar əvvəlcə hərbi liseyin Heydər Əliyev Muzeyinə gələrək burada Ümummilli Liderin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri qoyub, Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən foto-guşə ilə tanış olublar.

Xarici ölkələrin hərbi nümayəndələrinə hərbi liseyin tarixi və fəaliyyəti barədə ətraflı brifinq təqdim edilib.

Daha sonra qonaqlar təhsil müəssisəsinin ərazisi, tədris korpusları və maddi-texniki bazası ilə tanış olub, tədris prosesini izləyiblər.



Hərbi attaşelər təhsil müəssisəsinin xatirə kitabına ürək sözlərini yazıblar.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə fotosu çəkdirilib.

## “Dəniz təməl komando kursu” keçirilir



Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci ilin döyüş hazırlığı planına əsasən, Hərbi Dəniz Qüvvələrində "Dəniz təməl komando kursu" keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq hərbi qulluqçulara mühəndis-istehkam hazırlığı üzrə partlayıcı qurğuların xüsusiyyətləri, həmçinin onlardan istifadə qaydaları nəzəri və praktiki şəkildə öyrədilir.

Bundan başqa, kurs müddətində iştirakçılarla hərbi topoqrafiya, dağçılıq, atəş hazırlığı, fiziki hazırlıq və digər fənlər üzrə məşğələlər keçirilir.

"Dəniz təməl komando kursu"nu bitirən hərbi qulluqçulara sertifikatlar təqdim ediləcək.

## XİN: Ermənistanın törətdiyi müharibə cinayətlərinin cəzasızlığına son qoyulmalıdır

Ermənistanın törətdiyi müharibə cinayətlərinin cəzasızlığına son qoyulmalıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin 2020-ci il oktyabrın 27-28-də Bərdədə törədilmiş terrorla bağlı rəsmi tviter səhifəsində paylaşımında bildirilib.

"İki il əvvəl oktyabrın 27-28-də Ermənistan atəşkəsi pozaraq Bərdəni kasetli raketlərlə bombaladı. İki yaşlı qız da daxil olmaqla, 27 nəfəri qətlə yetirən və 70-dən çox adamı yaralayan bu hücum 2020-ci il müharibəsində mülki əhaliyə qarşı ən ölümcül hücum idi", - deyə nazirliyin paylaşımında qeyd olunub.

## “N” hərbi hissəsinin komanda-qərargah təlimi keçirilir



Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində “N” hərbi hissəsinin qərargah zabitlərinin iştirakı ilə kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin keçirilməsində əsas məqsəd komandirlərin və qərargah zabitlərinin çevik qərar qəbuletmə bacarıqlarını, döyüşü idarəetmə qabiliyyətini artırmaq, həmçinin bölmələr arasında qarşılıqlı əlaqənin daha da təkmilləşdirilməsindən ibarətdir.

## ANAMA: Müharibədən sonra 156 mina insidentindən 116-sı keçmiş təmas xəttindən kənardakı ərazilərdə qeydə alınıb

Müharibədən sonrakı dövrdə baş verən 156 mina insidentindən 116-sı keçmiş təmas xəttindən kənarda yerləşən ərazilərdə qeydə alınıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu il oktyabrın 26-dək baş verən mina hadisələrində zərərçəkən 266 nəfərdən 147-si məhz bu ərazilərdə mina partlayışından həlak olub və ya xəsarət alıb.

ANAMA tərəfindən aparılan tədqiqat və təmizləmə əməliyyatları zamanı keçmiş təmas xətti və bu ərazilərin ətrafında yerləşən bağlar, meşələr, üzümlüklər, dağıdılmış yaşayış məskənləri, məzarlıqlar, çay kənarları və sair yerlərin ciddi şəkildə minalarla çirkləndirilməsi aşkar edilib. Ağdam rayonunun Yusifcanlı və Qarağacı, Cəbrayılın Cocuq Mərcanlı, Laçın rayonunun Suarası kəndlərində yerləşən məzarlıqların minalanmasına dair dəqiq məlumatlar var. 2021-ci ildə Ağdam rayonunun Yusifcanlı kənd məzarlığında 2 nəfər mülki şəxsin həlak olması, 2 nəfərin xəsarət alması, həmçinin son hadisə olaraq oktyabrın 21-də Laçın rayonunun Suarası kəndi məzarlığında 1 nəfərin həlak olması, digərinin xəsarət alması ilə nəticələnən mina hadisələri buna sübutdur.

Məzarlıqların, insanların müqəddəs yerlərinin, eyni zamanda, mədəni-tarixi abidələrə gedən yolların, bu yerlərin ətrafının, az sayda dağıdılmamış evlərin və həyətyanı sahələrinin minalanması, o cümlədən tələ minaları ilə kütləvi şəkildə çirkləndirilməsi insanlığa qarşı törədilmiş cinayətdir.

Təqdim olunan mina formulyarlarının qeyri-dəqiqliyi, habelə mülki təyinatlı ərazilərin minalanması, partlayıcı sursatlarla ciddi şəkildə çirkləndirilməsi regionda sülhə və təhlükəsizliyə təhdidlər yaradır, humanitar fəlakətə səbəb olur.

Bütün qeyd olunan faktları nəzərə alaraq, ANAMA bir daha vətəndaşları məsuliyyətli və diqqətli davranaraq qanunsuz səfərlərdən çəkinməyə, müəyyən olunmuş marşrutlardan kənar çıxmamağa çağırır.

# Bakıda STANAG test komissiyalarının işçi görüşü keçirilib



Azərbaycan və Latviya Müdafiə nazirlikləri arasında imzalanmış 2022-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq oktyabrın 25-də Milli Müdafiə Universitetində STANAG test komissiyaları arasında işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə ingilis dili üzrə STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsi, test materiallarının moderasiya edilməsi, qarşılıqlı istifadəsi və sınaqdan keçirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Döyüş hazırlığı zəfər müjdəçisidir

**(Əvvəli 1-ci səhifədə)**

Böyük qürur hissi ilə deyə bilərəm ki, zabit və əsgərlərimiz düşmənin ön səddinin yarılmasında, canlı qüvvəsinin və zirehli texnikalarının darmadağın edilməsində igidlik və hünər göstərdilər. Düşmənə yeni dayaq məntəqələrində möhkəmlənməyə imkan vermədilər. Artilleriyaçılarımızın İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqlar gələcək nəsillərə örnək olacaq. Onu da xüsusi olaraq deyim ki, döyüşlərdə qazanılan qələbələr heç vaxt bizi arxayınlaşdırmır. Əksinə, daha da hazırlıqlı və peşəkar olmağa, yeni qələbələr qazanmağa ruhlandırır. Keçdiyimiz dərs və məşğələlərdə İkinci Qarabağ müharibəsində əldə olunmuş təcrübədən də bəhrələnirik. Müharibənin davam etdiyi günlərdə, bəzi məqamlarda mümkün olmayanları da mümkün etdik. Torpaqlarımızı işğaldan azad etmək üçün bütün bilik və bacarığımızı ortaya qoyduq. Buna görə də qalib gəldik. İndi keçdiyimiz dərs və məşğələlərdə həmin təcrübəni də şəxsi heyətə öyrədirik. Bugünkü məşğələnin mövzusu "Topun yanında heyət nəfərinin vəzifələri"dir. Əsgərlərimiz mövzuya uyğun olaraq üzərlərinə düşən vəzifələri bacarıqla icra edirlər. Heyət nəfərlərinin döyüş vərdişləri yüksəldikcə onlar dərs və məşğələlərdə daha böyük fəallıq göstərirlər. Təbiidir ki, bu fəallıq əsgərlərimizin artilleriyanın sirrini daha dərindən öyrənmək istəyindən, Vətən sevgisindən irəli gəlir. Sevgi və istək olan yerdə hər zaman uğur və zəfər var. Buna görə də biz əsgərlərə təlim-məşqləri böyük həvəslə keçirik. Heyət nəfərlərini belə hazırlıqlı görəndə qürur hissləri keçiririk. Görürük ki, neçə vaxtdan bəri çəkdiyimiz zəhmət hədər getməyib. Necə deyərlər, zəhmətimiz, əziyyətimiz yaxşı nəticə verib".

Mayor İlkin Allahverdiyevlə söhbətimiz zamanı onu da öyrəndik ki, o, İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Ağdamın azad olunmasına görə" və "Şücaətə görə" medallarına layiq görülüb.

Mayor Emin Qasımov da İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalına layiq görülüb. Zabit 44 günlük Vətən müharibəsindən söz açaraq deyir ki, iştirakçısı olduğum İkinci Qarabağ müharibəsi tariximizin ən şərəfli səhifələrindəndir. "Bu müharibə bir daha göstərdi ki, təcrübəli və bacarıqlı əsgər qalib əsgərdir. Çalışırıq ki, əsgərlərimiz bacarıqlı və peşəkar olsunlar, düşməni dəqiq atəşlə məhv etsinlər. Buna görə də məşğələlərin keçirilməsini daim nəzarətdə saxlayırıq. Əvvəlcə dərsi əsgərlərə nəzəri cəhətdən izah edirik. Sonra zəruri və vacib hərəkətləri əyani şəkildə onlara göstəririk. Çalışırıq ki, heyət nəfərləri artilleriya qurğusunun sirlərinə daha da dərindən yiyələnsinlər".

Müddətdən artıq həqiq hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Xəyal İsmayılzadə top komandiri kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışdığını deyir. "Məşğələdə mövzuya uyğun olaraq şəxsi heyətə artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərini böyük həvəslə öyrədirəm. Heyət nəfərləri dərslərdə fəallıq göstərir.

Əsgər Kamran Qafullu döyüşlər zamanı üzərinə düşən vəzifələrdən söz açır. Deyir ki, istər döyüşlər, istərsə də təlimlər zamanı tuşlayıcının üzərinə böyük məsuliyyət düşür. "Əvvəlcə hədəfin yeri və məsafəsi dəqiq müəyyənləşdirilməlidir. Ondan sonra isə hədəf vurulmalıdır. Məsafə və yer düzgün müəyyənləşməsə açılan atəşdən dəqiqlik olmayacaq. Peşəkarlığımızı artırmaq üçün təlim-məşqlərdə fəal iştirak edirik. Sutkanın istənilən anında döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirik. İnanırıq ki, bu hazırlıq və qadirlik həmişə bizə başucalığı gətirəcək".

Heyət nəfərlərindən Səid Əhmədzadə, Elnur Ağakişiyev, Natiq Hüseynov, Fərid Salamov və başqalarının da ürək sözlərini dinləyirik. Onlar dərs və məşğələlərdə fəal iştirak etdiklərindən həvəslə danışırlar. Onların ürək sözlərini dinlədikcə qürur hissləri keçiririk. Hiss edirik ki, onlar torpağını, Vətənini sevən və onun uğrunda hər an döyüşə hazır olan cəsur əsgərlərdir.



Söhbətimiz başa çatdıqdan sonra artilleriyaçılar yenə də məşğələlərinə davam etdirirlər. Beləcə, payız fəslinin gözəl bir gününü zabit və əsgərlərin məşğələsini izləməklə, onlarla söhbət etməklə keçirik. Günümüz həmişəkindən daha xoş keçir. Bu söhbətlər ovqatımıza ovqat qatır.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Medallı igidlərimiz*

# "Döyüşənlərin heç birini unutmaram"

Orta məktəbdə oxuyanda müəllimindən eşitmişdi: "Yaxşı vətəndaş bacardığı işin qulpundan yapışar". Müəllimi onu da demişdi ki, bacardığın işi sevmədən işləmək günahdı. Böyük Nizaminin misrasını da həmin illərdə dərk etmişdi: "Çalış öz xalqının işinə yara"...

Salyan rayonunun Yenikənd kəndində orta məktəbi bitirəndə bunları da xatırlamışdı. Nə vaxtsa o da bir işin qulpundan yapışmaq üçün təhsil almaq istəyirdi. Hərbçi olmağı qərara almışdı. Böyük Nizaminin həmin müdrik kəlamını da unutmamışdı. Baxdığı tele-verilişlərin, oxuduğu kitabların, məqalələrin nəticəsi xalqın "işinə yaramağın" ən gözəlinin hərbçi olduğunu duyurdu. Duyumunu müəllimlərində də demişdi. Müəllimlərindən də, atasından da xeyir-dua almışdı. Beləcə, Müşfiq Əliyev orta məktəbi bitirəndə, 2011-ci ildə sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstituta) vermişdi. Qəbul olunmuşdu...

O da digər kursantlar kimi oxuyur, hazırlaşır, biliyini artırır, təcrübi vərdişlərini təkmilləşdirirdi. Niyəsə, hansı xüsusiyyətlərinə görəsə kapitan Aqşin Əhmədovun, mayor Musayevin xarakterini daha çox sevirdi (kapitan Müşfiq Əliyev təəssüflə mayor Musayevin İkinci Qarabağ müharibəsində şəhid olduğunu dedi...). Kursant olaraq sevdiyi bu xarakterləri zabit olaraq yaşadacağına, öz xarakterinə hopduracağına söz vermişdi. Bu, xarakterin xarakterə təlqini deyildi, xarakteri xarakterə uyğunlaşdırma meyli idi...

Müşfiq Əliyev leytenant kimi hərbi xidmətə də bu zabitlərin xeyir-duası ilə getmişdi...

Hərbi xidmətə başlayanda da bu zabitlərin sərištəsini, zabit kimi öyrətmə metodlarını hərbi xidmətinə ülgü (hərbi üslub) bilirdi. O da zabit-müəllimləri kimi öyrətmə prosesində inandırmaya həmişə daha həssas yanaşırdı.

Gənc əsgər necə öyrənirsə, gənc zabit də hərbi xidmətdə elə öyrənir, öyrədir. Mən mayor Mətləb Ələkbərovun komandirlik səriştəsini özümə məktəb bilirdim. "Başlıca olaraq nəyi?" - soruşdum. "Bir qədər sərtliyi, bir qədər mehribanlığı, tələbkarlığı, məqamında xırda nöqsanları bağışlama xasiyyətini. Mən dözümlülüyü də ondan öyrənmişəm", - kapitan Müşviq Əliyev belə dedi. "Hərbi xidmətimdə əldə etdiyim uğurlara görə bu zabitlərə borcluyam. Onları özümə müəllim hesab etmişəm", - Azərbaycan Ordusunun zabitlərini böyük ehtiramlarla xatırladı...

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Yuxarı komandanlığın əmri ilə kapitan Müşfiq Əliyevin xidmət etdiyi hərbi hissə döyüşlərə oktyabrda cəlb edildi...



İlk döyüşdə əmrin icrasına başladıqları an yaxınlıqlarında mina partlayıb. Döyüşçülərdən biri şəhid olub, dördü yaralanıb. Şəhidi yola salıblar, yaralıları təxliyə etdikdən sonra döyüşü davam etdiriblər.

Oktyabrın 13-də Cəbrayıldaydılar... Düşmən mövqeyindən uzaqlaşdırıldı. Döyüşün qələbə sonluğu döyüşçülərin döyüş əzmini də, qələbə ruhunu da yüksəltdi...

Ayın 14-ü idi. Dağlıq ərazilərlə düşmənin mövqelərinə yaxınlaşdılar. Üç istiqamətli hücuma keçdilər. Kapitan Müşfiq Əliyevin komandirliyi ilə bir taqım mərkəzdən, digər iki taqım sağdan-soldan. Gün ərzində düşmənin müqavimətini qırmaq mümkün olmadı. Axşama yaxın düşmənin müqavimətində hiss edilməsi çətin olmayan bir zəiflik duyuldu. Müşfiq bu zəiflikdən taktiki gedişlə istifadə etdi: hücumu müdafiənin zəifləyən yerindən deyil, başqa istiqamətdən gücləndirdi. Düşmən əsas qüvvəsini həmin istiqamətə cəmləyəndə zəifləmiş mövqedən güclü hücuma keçdilər. Düşmənin səddi yarıldı və o geri çəkildi. Azad etdikləri mövqedə möhkəmləndilər...

Onları Laçın istiqamətinə göndərdilər.

Gizir Azadi Muradın yaralanmasını indi də qəhərlə xatırlayır. "Qəhərimin ömrü uzun olmadı. İgid gizir müalicədən sonra xidmətini davam etdirir. Həm də işğaldan azad edilmiş ərazilərimizin birində. Yenə həmin ruhla, yenə həmin ürəklə...", - İkinci Qarabağ müharibəsi iştirakçısı İkinci Qarabağ müharibəsi iştirakçısını bu sevgilərlə xatırlayır, bu sevgilərlə tanıdır...

Vətən müharibəsi başa çatdı...

Kapitan Müşfiq Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib...

Kapitan Müşfiq Əliyev deyir ki, nə İkinci Qarabağ müharibəsində qazanılan Zəfəri, nə döyüşlərdə şəhid olanları, nə də döyüşlərin iştirakçılarını heç zaman unutmaram. Unuda bilmərəm...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# İşğaldan azad olunmuş ərazilərdə kütləvi məzarlıqlar aşkar edilib



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, yüksək sərkərdəlik məharəti, birinci xanım Mehriban Əliyevanın dəstəyi, xalqın dəyanəti, əzmkarlığı, hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində 30 ilə yaxın müddətdə işğal altında qalan tarixi torpaqlarımız hərbi və siyasi-diplomatik yolla azad olunub.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğaldan azad edilmiş torpaqlarda, o cümlədən Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Ağdam rayonunun Sırxavənd kəndləri, eləcə də Xocalı rayonunun Fərrux kəndində və digər ərazilərdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər aidiyyəti qurumların nümayəndələri ilə birlikdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində kütləvi məzarlıqlar aşkarlanıb.

Azərbaycan Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 115.4-cü, 120.2.7-ci, 120.2.12-ci və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan 450-dən artıq insan meyitinin qalıqları çıxarılaraq ekshumasiya edilib. Həmin meyit qalıqları ilə bağlı 300-ə yaxın məhkəmə-tibbi və 280-dən artıq molekulyar-genetik ekspertizaları təyin olunaraq icraya yönəldilib. Eləcə də şahidlər dindirilib və digər zəruri istintaq-əməliyyat tədbirləri yerinə yetirilib.



Baş prokurorun müavini - Azərbaycanın Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bu il oktyabrın 26-da qeyd olunan ərazilərə gedərək həmin cinayət işinin istintaqının gedişatı ilə yerində maraqlanıb, müvafiq tövsiyələr və tapşırıqlar verib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*Nümunəvi xidmət*

# Sərhədlərimiz etibarlı əllərdədir

*"N" hərbi hissəsinin döyüş növbətçiliyi aparan bölmələrindən birindəyik. Bölmə atəşkəsi pozan, təxribatlar törətməyə cəhd edən erməni silahlı qüvvələri qarşısında keçilməz qala kimi dayanıb. Bu qalada isə qorxmaz, mərd Azərbaycan əsgərləri xidmət edirlər.*

Leytenant Turan Əzizovla görüşüb qəzetimizin nümunəvi xidmət rubrikasına yazı hazırlamaq istəyimi bildirdim. Zabit əsgərləri arasında seçim etməkdə tərəddüd etdi. "Əsgərlərimin hamısı nizam-intizamlı, vətənpərvər, şanlı ordumuzun adına layiqli əsgərlərdir. Hamısı nümunəvi xidmət edir. Onlardan ən təcrübəli olanını seçək", - leytenant Turan Əzizov belə dedi. Əsgər Coşqun Mahmudovun vətənpərvərliyi, qorxmazlığı ilə komandirlərinin və silahdaşlarının rəğbətini qazandığını vurğuladı. Nümunəvi xidməti ilə seçilən Coşqunun həm də bölmədəki əsgərlərlə əsl dostluq münasibəti yaratdığını və yoldaşları arasında sevildiyini bildirdi. Coşqun haqqında silahdaşları da müsbət fikirlər səsləndirdilər.

"Coşqun döyüş postuna gəldiyim ilk gündən mənə xoş münasibət göstərib, öz təcrübəsini bölüşüb. Xidmətdə nizam-intizamlı olmağı, komandirlərimizin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirməyi tövsiyə edib. İlk dəfə döyüş növbəsinə onunla çıxdığımı da unutmayacam. Mənə deyirdi ki, qarşımızda düşmən dayanır, ayıq-sayıq olmaq lazımdır. Biz onlardan qat-qat güclü, qalib, qorxmaz, cəsur əsgərlərik.

Coşqun bir neçə aydan sonra xidmətini başa vuraraq ailəsinin yanına qayıdacaq. Ona gələcək həyatında uğurlar arzulayıram", - bu sözləri hərbi xidmətə Biləsuvar rayonundan çağırılan əsgər Orxan Məmizadə dedi.

Digər əsgər yoldaşları da Coşqun haqqında xoş sözlər danışdılar. Bildirdilər ki, onun nümunəvi xidməti, Vətən sevgisi, döyüş ruhu bölməyə təzə gələn əsgərlərə də müsbət təsir edir.

Hər kəsin haqqında xoş sözlər dediyi əsgərin silah tutan əlini sıxdım. Həm komandirinin, həm də əsgər yoldaşlarının onun haqqında dediyi sözləri diqqətinə çatdırdım. Çöhrəsində xoş təbəssüm canlandı. "Bundan böyük sevinc ola bilməz. Bu, mənim üçün böyük qürurdu", - əsgər C.Mahmudov dedi.



Hərbi xidmətə Mingəçevir rayonundan çağırılıb. Xidmətinin başa çatmağına az qalıb. Ordu sıralarından hansı təəssüratlarla ayrılacağını soruşanda, o, belə cavab verdi:

- Mən ordu sıralarından ayrılmıram. Düzdür, əsgəri xidmətimin başa çatmağına az qalır. Lakin ömrümü hərbi xidmətə bağlamaq qərarına gəlmişəm. Əsgəri xidmətimi başa vuran kimi könüllü olaraq ordu sıralarında qalıb xidmətimi davam etdirmək istəyimi yuxarı komandanlığa bildirəcəm. Ən böyük arzum əsgəri xidmətdə olduğu kimi gələcəkdə də nümunəvi xidmətimi davam etdirib, şanlı Azərbaycan Ordusunun layiqli hərbçilərindən olmaqdır.

O vurğuladı ki, Vətən bizə əmanətdir, biz Vətən keşikçiləriyik, çətinlik bilmədən üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirməyə çalışırıq. Bu yolda komandirlərinin zəhmətini xüsusi qeyd edərək, əsgərliyə işğaldan azad olunan torpaqlarımızda xidmət etmək arzusu ilə gəldiyini diqqətimizə çatdırdı. Xidmət zamanı komandirlərimdən çox şey öyrənmişəm. Onların diqqət və qayğısı xidmətimi uğurla davam etdirməyə zəmin yaradır. Əsgər kimi üzərimə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışıram. Hərbi xidmətə çağırılanda atama dedim ki, kaş təyinatım döyüş növbəsi aparan hərbi hissəyə olsun. Səngərdə xidmət etmək arzusunda olmuşam. Gənc əsgər hazırlığı təlimi bitdikdən sonra təyinatlarımız verildi. Bu bölməyə gələndə çox sevindim. Nəhayət, arzuma çatmışdım. Mən də əlimdə silah döyüş növbəsində, düşmənlə üz-üzə dayandım. Həyəcanımla yanaşı, sevincimin həddi-hüdudu yox idi. Növbəni uğurla başa vurdum. Özümə söz verdim ki, bütün xidmətim dövründə ayıq-sayıq olacağam, sərhədlərimizin keşiyində inamla dayanacağam.

Coşqun kimi Vətən sevgisi ilə xidmət edən, Azərbaycan əsgəri adını daşımaqla qürur duyan mərd oğulları tanıdıqca, bir daha əmin olursan ki, Azərbaycan Ordusunda vətənpərvər, cəsur, hər an döyüşə hazır olan əsgərlər xidmət edirlər. Coşqunun timsalında bütün əsgərlərimizə şərəfli xidmətlərində uğurlar arzulayıram.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Meksika mətbuatında Ermənistan tərəfinin böhtanları ifşa edilib

Meksikanın aparıcı mətbu orqanlarından olan "Excelsior" qəzetində səfir Məmməd Talıbovun Ermənistanın böhtan xarakterli məlumatlarına cavab müsahibəsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibədə ilk olaraq səfir M.Talıbov Ermənistan səfiri Armella Şəkəryanın münaqişə ilə bağlı reallıqları təhrif edərək meksikalı oxuyucuları aldatmağa çalışdığını qeyd edib.

Məqalədə Ermənistanın 30 il ərzində beynəlxalq ictimaiyyətin mövqeyinə məhəl qoymadan Azərbaycanın 20 faiz ərazisini qanunsuz işğal etməsi, bu ərazidəki şəhər və kəndlərin Ermənistan hərbi qüvvələri tərəfindən tamamilə dağıdılaraq talan edilməsi, 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra da Ermənistan tərəfindən ərazilərin kütləvi şəkildə minalanması və 250-yə yaxın mülki şəxsin, o cümlədən iki jurnalistin bu minalanmanın qurbanı olması barədə məlumat verilib.

Yazıda, həmçinin Azərbaycanın bu ilin sonunadək sülh sazişi imzalamağa hazır olduğu, bunun üçün isə Ermənistanın bu kimi əsassız ittihamlardan əl çəkməli, 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq sülh sazişinin imzalanması, kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli olduğu qeyd olunub.

Müsahibədə vurğulanır ki, Azərbaycandan fərqli olaraq, Ermənistan tərəfindən bu günə qədər törədilmiş saysız hesabsız müharibə cinayətlərinin, o cümlədən onlarla mülki şəxsin ölümü ilə nəticələnən Gəncə, Bərdə və Tərtər şəhərlərinin ballistik raket və kaset bombalarla atəşə tutulması ilə bağlı cinayətlərin araşdırılması ilə əlaqədar heç bir tədbir görülməyib.

# “Ermənistan nəqliyyat əlaqələrinin təhlükəsizliyinə dair öhdəliklərini yerinə yetirməlidir”

Ermənistan 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsinə son qoyan üçtərəfli Bəyanatın bir hissəsi olaraq Naxçıvan eksklavının Azərbaycanın əsas hissəsi ilə nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət verməyi öhdəsinə götürüb və regionda dayanıqlı sülhə nail olmaq üçün buna əməl etməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər tanınmış Qərb politoloqu, ABŞ-ın İrs Mərkəzində Douglas and Sarah Allison Xarici Siyasət Mərkəzinin direktoru Lyuk Kofinin Səudiyyə Ərəbistanının ingilis dilində nəşr olunan "Arab-news" qəzetində dərc edilmiş məqaləsində yer alıb. O qeyd edib ki, müharibənin başa çatmasından iki il ötür, lakin Zəngəzur dəhlizi ilə bağlı məsələ hələ də həllini tapmayıb.

Qərb politoloqu vurğulayıb ki, Zəngəzur dəhlizi Türkiyənin Avrasiya quru hissəsini mərkəzi Asiyada birləşdirəcək, həmçinin Azərbaycanı üçüncü dövlətin ərazisində keçid vasitəsilə Naxçıvanla nəqliyyat əlaqəsi saxlamaq problemindən xilas edəcək. Digər tərəfdən, Azərbaycan ilə Ermənistan arasında tezliklə sülh müqaviləsinin imzalanacağı təqdirdə Ankara-Yerevan münasibətləri də normallaşa bilər. Bu da regionda sabitliyin möhkəmlənməsinə, habelə iqtisadi tərəqqiyə şərait yaradacaq.

Qərb politoloqu deyib ki, Zəngəzur dəhlizinin açılmasına əngəl olmaq istəyən qüvvələr, əslində Cənubi Qafqazda sülhün bərqərar olmasına zərbə vurur və beynəlxalq ictimaiyyət belə cəhdlərin qarşısının alınması istiqamətində daha fəal olmalıdır. L.Kofi İranın Qafanda konsulluq açmasını, rəsmi Tehranın qeyri-konstruktiv bəyanatlarını bu qəbildən olan manevrlər kimi xarakterizə edib.

# Zəfər forumunun növbəti ünvanı Qusar və Ağdam rayonları olub



Biləsuvardan start götürən Zəfər forumunun növbəti ünvanı oktyabrın 25-də Qusar rayonu olub.

Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarını əhatə edən Zəfər forumu Qusar rayon Mədəniyyət Mərkəzində təşkil olunub.

Forumda Prezident Administrasiyasının məsul əməkdaşları, Müdafiə Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının rəsmiləri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, Azərbaycan Ordusunun hərbi qulluqçuları, qeyri-hökumət təşkilatlarının, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Qonaqlar tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Şəhidlər xiyabanını ziyarət ediblər.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin moderatorluq etdiyi tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov



forum iştirakçılarını salamlayıb. Qusarlıların da hər zaman Heydər Əliyev ideyalarına sadiq olduqlarını qeyd edib, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həm ön cəbhədə, həm də arxa cəbhədə göstərdikləri fədakarlıq və igidliklərdən söhbət açıb. Növbəti Zəfər forumunun Qusarda keçirilməsini rayon sakinlərinə göstərilən böyük etimad kimi dəyərləndirib və bundan sonra da Vətənə, xalqa, dövlətə sadiq vətəndaşların formalaşması üçün səylərini əsirgəməyəcəklərini bildirib.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev 44 gün davam edən Vətən müharibəsində qazanılan Qələbənin tarixi əhəmiyyətindən danışıb. Bu Qələbənin xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, rəşadətli ordumuzun əsgər və zabitlərinin qəhrəmanlıq və şücaətinin, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq




məfkurəsinin, Azərbaycan-Türkiyə qardaşlığının və Prezident İlham Əliyevin sərkərdəlik məharətinin, qətiyyətinin, hücum diplomatiyasının və dəmir yumruğunun Qələbəsi olduğunu qeyd edib.

Tədbir çərçivəsində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Əsgərə Məktub" layihəsi də həyata keçirilib. Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və müvafiq qurumların nümayəndələri çıxış edərək, Müzəffər Ali Baş Komandanın naminə əmrlərinə hər an hazır olduqlarını bildiriblər.

Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlanıb, xalqımıza Zəfər sevincini yaşatdığına görə dərin ehtiram ifadə olunub.

Tədbir iştirakçıları əməkdar artist polkovnik-leytenant Cahangir Qurbanovun rəhbərlik etdiyi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə hərbi marş və vətənpərvərlik mahnılarını alqışlarla qarşılayıblar.

Nümayəndə heyətlərinə Müdafiə Nazirliyinin adından A.Qurbaninin "Böyük gələcəyə baxış" və "Vətən müharibəsi şəhidləri" adlı kitabları hədiyyə edilib.

* * *

Zəfər forumunun növbəti ünvanı oktyabrın 27-də Ağdam rayonu olub.

Ağdam, Ağcabədi, Beyləqan, Füzuli, Bərdə, Tərtər, Zərdab, İmişli, Laçın və Xocavənd rayonlarının təmsilçilərinin iştirakı ilə keçirilən Zəfər forumu Ağdam Muğam Mərkəzində təşkil olunub. Forumda Prezident Administrasiyasının məsul əməkdaşları, Müdafiə Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının rəsmiləri,



şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, Azərbaycan Ordusunun hərbi qulluqçuları, qeyri-hökumət təşkilatlarının, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Qonaqlar tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Şəhidlər xiyabanını ziyarət ediblər.

Sonra "Əsgərə məktub" layihəsi çərçivəsində Vətən müdafiəçilərinə məktublar ünvanlanıb.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, müharibə və Silahlı Qüvvələr veteranı, Zəfər paradının ssenari müəllifi və aparıcısı polkovnik Abdulla Qurbaninin moderatorluq etdiyi tədbirdə ənənəvi olaraq görkəmli dövlət xadimi Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov etimad göstərilərək növbəti Zəfər forumunun bu rayonda keçirilməsinə görə təşkilatçılara minnətdarlığını bildirib. O, Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımıza böyük Qələbə yaşadan döyüşçülərimizə, şəhid ailələrinə və qazilərimizə diqqət və qayğının artırılmasında, rəşadətli ordumuza mənəvi və maddi dəstək göstərilməsində səylərini bundan sonra da əsirgəməyəcəklərini deyib.



Prezident Administrasiyasının sektor müdiri Vüsal Quliyev forum iştirakçılarını salamlayaraq İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Qələbənin tarixi əhəmiyyətindən bəhs edib.



Vüsal Quliyev rəşadətli ordumuzun əsgər və zabitlərinin addım-addım irəliləyərək Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdiklərini, torpaqlarımızın qəhrəman döyüşçülərimizin qanı və canı bahasına azad edildiyini, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi nəticəsində Qələbənin təmin olunduğunu nəzərə çatdırıb. Azərbaycan Respublikasında Anım Gününün, Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarının əhəmiyyəti barədə danışıb.

Ağdam, Ağcabədi, Beyləqan, Füzuli, Bərdə, Tərtər, Zərdab, İmişli, Laçın və Xocavənd rayonlarından olan şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və müvafiq qurumların nümayəndələri çıxışlarında Müzəffər Ali Baş Komandan Azərbaycan naminə əmrlərinə hər an hazır olduqlarını bildiriblər.

Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edilib, xalqımıza Zəfər sevincini yaşatdığına görə dərin ehtiram ifadə olunub.

Əməkdar artist polkovnik-leytenant Cahangir Qurbanovun rəhbərlik etdiyi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə hərbi marş və vətənpərvərlik mahnıları alqışlarla qarşılanıb.

Nümayəndə heyətlərinə Müdafiə Nazirliyi adından A.Qurbaninin "Böyük gələcəyə baxış" və "Vətən müharibəsi şəhidləri" adlı kitabları hədiyyə edilib.

Qeyd edək ki, növbəti forumlar İsmayıllı, Sabirabad və Bakıda keçiriləcək.




**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikası Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.

**Suallar:**

**1. Azərbaycan Respublikasının Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında.**

**2. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.**

### Azərbaycan Respublikasının Konstitusiyası, dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında

Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin əsas qanunudur. Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

**Azərbaycan Respublikasında hakimiyyətin mənbəyi haqqında:**

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

Sərbəst və müstəqil qaydada öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

**Siyasi əsaslar:**

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**İqtisadi əsaslar:**

Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Dövlət mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Milli Bank dövlətin müstəsna mülkiyyətidir.

### Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Azərbaycan Ordusunun yaradılması zəruri oldu. Bu həm də ölkəmizin erməni təcavüzünə qarşı mübarizə aparması üçün lazım idi. Bir sözlə, Azərbaycan Ordusunun formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi. Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Respublikasının Əsas Qanunu - Konstitusiyasında da Silahlı Qüvvələr və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaratdığı, Silahlı Qüvvələrin Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət olduğu, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir.

76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır.

Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəl qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr etdi. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək və Azərbaycan Ordusunun daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir.

Bu gün Azərbaycan Ordusu müasir texnika, silah və sursatla təchiz olunmuş, zabit kadrları ilə komplektləşmiş, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Qoşun, birlik və birləşmələrdə şəxsi heyətin nizam-intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar şəxsi heyətin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və yetişməsinə imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Heydər Əliyev adına Hərbi İnstitutda müasir standartlara cavab verən tədris bazası mövcuddur. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən yaradılmış Silahlı Qüvvələrin Hərbi Akademiyası hazırda Hərbi İdarəetmə İnstitutu kimi öz fəaliyyətini uğurla davam etdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar, şəxsi heyət arasında azərbaycançılıq, hərbi vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, peşəkar zabit korpusunun formalaşdırılması, ordumuzun ən müasir hərbi texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasəti Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə böyük qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Təbii ki, Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanılmış Aprel zəfəri, 2018-ci ildə Günnüt qalibiyyəti və eləcə də 2020-ci ilin sentyabrında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı Vətən müharibəsi beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu.

İşğal altında olan ərazilərimiz azad edildikdən sonra düşmən qüvvələrinin törətdikləri təxribatların qarşısını almaq üçün ordumuzun hissə və birləşmələri daim döyüşə hazır olmalıdırlar. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü Vətəninin müdafiəsi üçün hazırlayır və Azərbaycan Ordusunun daha güclü olmasına öz töhfəsini verir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Azərbaycan Respublikası Konstitusiyasının tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Müşahidəçi missiyası: sülhün carçısı, yoxsa ikili standartların təzahürü?!

## Ən çox müzakirə olunan mövzu haqqında mülahizələr

Artıq bir neçə gündür ki, Avropa İttifaqının (Aİ) mülki missiyasının Ermənistan ərazisində yerləşdirilməsi ətrafında müzakirələr səngimir. Bu mövzu mətbuatın diqqət mərkəzindədir desək, yanılmarıq. Şübhəsiz ki, Cənubi Qafqaz kimi strateji cəhətdən vacib və əhəmiyyətli bölgədə çoxdan arzu olunan davamlı sülhün bərqərar olunması zamanı baş verən hər hansı hadisə dərhal diqqəti cəlb edərək, geniş polemikaya yol açır, müxtəlif fərziyyələrin, fikirlərin irəli sürülməsinə zəmin yaradır. Mövzunun aktuallığını nəzərə alaraq biz də bu məsələyə biganə qala bilməzdik.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan zabit, Azərbaycan Jurnalistlər Birliyinin üzvü İsa Eldaroğlu deyib.

İsa Eldaroğlu qeyd edib ki, Praqada keçirilən "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində baş tutan dördtərəfli görüşdən sonra Avropa İttifaqının mülki missiyasının şərti Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşdirilməsi barədə qərar qəbul edilib: "Təşkilatın rəsmi nümayəndəsi açıqlama verərək bildirib ki, "məsələnin təxirəsalınmaz olduğunu nəzərə alaraq, ilkin mərhələdə 40 nəfərlik nümayəndə heyətinin Ermənistan tərəfində yerləşdirilməsi nəzərdə tutulur". Ermənistan tərəfi isə müşahidəçilərin sayının 400 nəfər olacağını iddia edir. Hələ bu da azmış kimi Ermənistanın baş naziri müraciət edərək Minsk qrupunun həmsədrlərini də bölgəyə dəvət edib. Otuz illik fəaliyyəti dövründə bölgəyə çoxlu sayda səfərlər edən, görüşlər keçirən, lakin münaqişənin həllində heç bir müsbət nəticəyə nail ola bilməyən bir təşkilatın nümayəndələrinin yenidən Ermənistana dəvət edilməsi nə məqsəd güdür?! Ermənistanın bu cür addımlarının və pərdəarxası oyunlarının müqabilində ATƏT-in Minsk Qrupunun 30 ilə yaxın bir müddətdə həll edə bilmədiyini 44 günə həll edən Azərbaycanın mövqeyi tam aydındır, məsələyə münasibəti birmənalıdır və bu vasitəçiliyin də səmərəli olacağına haqlı olaraq ümid bəslənilmir. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbərinin məsələyə münasibəti də məhz bu yöndədir".

O, ATƏT-in texniki qrupunun Ermənistan hökuməti tərəfindən bölgəyə dəvətini "faktiki olaraq fəaliyyət göstərməyən" Minsk qrupunun "reanimasiya" cəhdi kimi dəyərləndirib: "Fikrimcə, qarşı tərəfin bu addımlarının arxasında davamlı sülhün, dayanıqlı sabitliyin bərpası naminə Azərbaycanın irəli sürdüyü təkliflərin icrasının ləngidilməsi, sərhədlərin demarkasiya, delimitasiya prosesinin yubadılması kimi ermənilərin növbəti bir hiyləsinin, məkrli planlarının olduğundan xəbər verir. Elə bu səbəbdən də mülki missiyanın yerləşdirilməsi və ermənilərin ATƏT-in texniki qrupunu bölgəyə dəvət etməsi ilə bağlı bəzi məqamlara toxunmaq, mülahizələrimi bölüşmək istərdim.



Dövlətimizin başçısı hələ Praqada olarkən qətiyyətlə bildirdi ki, biz yalnız dövlətimizin maraqlarının təmin edildiyi halda əməkdaşlıq edəcəyik. Azərbaycan sərhədlərin demarkasiyası və delimitasiyası prosesinin həyata keçirilməsində, sülh müqaviləsinin imzalanmasında, sərhədlərin, ərazi bütövlüyünün qarşılıqlı tanınmasında ona görə israrlıdır ki, gərginlik səngisin, sülh bərqərar olsun, kommunikasiyalar açılsın və beləliklə, bölgədə ədavətə son qoyulsun. Ermənistan da bu cür xoşməramlı təşəbbüslərə qoşularaq uzun illər ərzində işğalçılıq siyasətinin fəsadlarından, səfalətdən, təcrid həyatından qurtulsun və qoşunlarını yaşayış məntəqələrimizdən uzaqlaşdırsın. Yəni, azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrin icrası, quruculuq işlərinin yerinə yetirilməsi məqsədilə təhlükəsizlik təmin edilsin. Çünki bu baş verməsə, işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işləri, yaradılan yeni infrastruktur, yaşayış məntəqələrimiz daim Ermənistanın hədəfində və təhdidi altında olacaq. Heç kim təminat verə bilməz ki, qarşı tərəf yenidən təxribatlara əl atmayacaq, mülki əhalini və yaşayış binalarını ağır artilleriyadan atəşə tutmayacaq. Belə olduğu halda yenə də Ermənistan silahlı birləşmələrinin artilleriya zərbələri nəticəsində mülki sakinlər arasında ölən və xəsarət alanların olması, yaşayış binalarının, mülki infrastruktur obyektlərinin dağıdılması istisna edilmir. Vətən müharibəsi zamanı döyüş bölgəsindən xeyli uzaq məsafədə yerləşən şəhər və kəndlərimizin ermənilər tərəfindən raket-artilleriya zərbələrinə məruz qalması və itkilərimizin olması barədə yetərincə faktlar mövcuddur. Qarşı tərəfin bu addımlarına tərəfimizdən dərhal cavab verilməsi də, təbii ki, yeni döyüş toqquşmalarına səbəb ola bilər.

Fikrimcə, xüsusi diqqət yetirilməli başqa bir məqam da odur ki, ermənilər Praqada keçirilən "Avropa siyasi birliyi" Zirvə Toplantısında baş tutan görüşlərdən sonra yaranan nisbi sabitlikdən istifadə edərək Azərbaycan Ordusunun bölmələri ilə üzbəüz olan mövqelərində təcili surətdə möhkəmləndirmə işləri aparır, fortifikasiya qurğuları, digər atəş nöqtələri yaradır, əlavə şəxsi heyət və artilleriya vasitələri yerləşdirirlər. Həmin əlavə qüvvələrdən gələcəkdə həyata keçirəcəkləri təxribatlarda istifadə edəcəkləri də istisna edilmir. Eyni zamanda, o da nəzərə alınmalıdır ki, şərti sərhəd kimi qəbul edilən ərazilərə Avropa İttifaqının mülki missiyası, yaxud ATƏT-in texniki qrupu yerləşdikdən sonra onlar orada olan şəxsi heyət, silah və texnika, eləcə də artilleriya vasitələrini əyani olaraq görəcək və qeydiyyata alacaqlar. Beləliklə, erməni tərəfi göstərməyə çalışır ki, guya onların burada əvvəllər də xeyli sayda hərbi qüvvələri olub (yəni, bunu missiyanın gəldiyi üçün etməyiblər) və bu qüvvələr yalnız Azərbaycan Ordusunun həmlələrini dəf etmək üçün lazımdır. Çünki mülki missiya burada yerləşdikdən sonra Ermənistan ordusu öz çirkin əməllərini davam etdirmək üçün artıq belə rahat yerdəyişmələr edə bilməyəcək".

İsa Eldaroğlu qeyd edib ki, Avropa İttifaqı nümayəndəsinin bildirdiyinə görə, ilkin mərhələdə 40 nəfərədək "müşahidəçinin" yerləşdirilməsi planlaşdırılır. ATƏT-in texniki qrupunun sayı hələ açıqlanmayıb. Yəni, açıqlanan say ilkin mərhələyə aiddir. Sonrakı mərhələlərdə daha nə qədər nümayəndə cəlb ediləcəyi məlum deyil. Lakin bu rəqəm özü belə artıq bizi düşünməyə vadar edir: "Zənnimcə "müşahidəçilərin" mülki missiya adlandırılması da Azərbaycan tərəfi üçün bir problemdir. Niyə görə? Səbəbi çox sadədir. Kim deyə bilər ki, Ermənistan ordusu gələcəkdə təxribatlar törətməyəcək və mövqelərimizi atəşə tutmayacaq? Mülki missiyanın yerləşməsi bizim bölmələrin atəş və əməliyyat imkanlarını müəyyən mənada məhdudlaşdırır. Belə ki, qarşı tərəfin təxribatlarının qarşısını almaq məqsədilə görüləcək adekvat cavab tədbirləri zamanı müxtəlif atıcı silahlardan istifadə etməkdən çəkinməli olacağıq. Çünki mövqelərimiz atəşə tutularkən adekvat cavab tədbirləri görülən zaman həmin mülki missiya və texniki qrup üzvlərinin də atəş zonasında olması, xəsarət alması mümkündür. Əgər belə hal baş verərsə, Ermənistan tərəfi öz xislətinə sadiq qalaraq bundan ustalıqla istifadə edəcək, dövlətimiz və ordumuzla bağlı Avropada və dünyada mənfi rəy formalaşdırmağa tuşlanan riyakar təbliğat kampaniyaları təşkil edəcək. Unutmayaq ki, bu gün də sərhədlərin delimitasiyası və sülhün bərqərar olması üçün Azərbaycan tərəfindən atılan müsbət addımlara münasibətdə ikili standartlar, fərqli, qərəzli yanaşmalar mövcuddur. Çünki bəzi beynəlxalq təşkilatların və ölkələrin Ermənistan silahlı birləşmələrinin ərazilərimizi işğalda saxladığı 30 ildə sərgiləmədiyi aktivliyi, canfəşanlığı son 3 ayda artıqlaması ilə nümayiş etdikləri də gün kimi aydın görünür. Uzun illər ərzində erməni təxribatlarına məruz qalan tərəf kimi bilirik ki, bizi cavab tədbirləri görməyə təhrik etmək üçün, atəşkəsin guya bizim tərəfimizdən pozulmasını qələmə verməkdən ötrü erməni hərbçiləri lazım gəlsə, hətta öz mövqelərinə belə zərbələr endirməkdən çəkinməyəcəklər. Qarşı tərəfin bu cür addımları əsasən qaranlıq vaxtı, məhdud görmə şəraitində atdığını nəzərə alsaq, belə bir vəziyyətdə atəşin hansı istiqamətdən açıldığını təyin etmək faktiki olaraq mümkün deyil. Həm də ki, "faktı" qeydə alan müşahidəçinin, texniki qrup üzvünün obyektiv yanaşacağı və qərəzsiz mövqe sərgiləyə biləcəyi də sual doğurur. Avropa İttifaqının müşahidəçi missiyası sülhün carçısı, yoxsa ikili standartların və erməni riyakarlığının növbəti təzahürü olacaq? Bunu da zaman göstərəcək. Beynəlxalq təşkilatların və erməni lobbisinin bütün bölgədə apardıqları siyasəti nəzərə alsaq... münaqişənin həlli ilə bağlı 30 illik fəaliyyəti yuxarıda qeyd olunanlara əyani sübutdur.

Bizim, bütün azərbaycanlı soydaşlarımızın isə yalnız bir istəyi, bir gözləntisi var ki, sülhün bərqərar olunmasına vasitəçilik etmək istəyən, dəstək göstərən hər bir təşkilat tərəfindən ədalətli qərarlar qəbul edilsin, münaqişələrə son qoyulsun, insanlar sülh, sabitlik şəraitində yaşasınlar".

# Xəbərlər: hadisələr, faktlar

## Suriyada daha 13 terrorçu zərərsizləşdirilib





Türkiyə Silahlı Qüvvələri tərəfindən Suriyada antiterror əməliyyatlarının keçirildiyi bölgələrdə daha 13 PKK-YPG terrorçusu zərərsizləşdirilib.

Türkiyənin Milli Müdafiə Nazirliyindən bu barədə bildirilib.

Məlumata əsasən, terrorçular Suriyanın şimalındakı "Fərat qalxanı" və "Sülh çeşməsi" əməliyyatlarının keçirildiyi bölgələrdə zərərsizləşdiriliblər. Bu terrorçuların hücum hazırlığında olduğu və təxribat atəşi açdığı bildirilir.

Əməliyyatlar davam edir.

## Gürcüstan 2023-cü ildə müdafiə xərclərini artıracaq



Gürcüstanın 2023-cü ildə müdafiə xərcləri 1 milyard 260 milyon lari təşkil edəcək.

Bu barədə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze ölkənin ictimai televiziyasına müsahibəsində deyib. Onun sözlərinə görə, cari ilin sonuncu rübündə nazirliyin büdcəsi 10 faiz və ya 80 milyon dollar artırılıb. Gələn ilin dövlət büdcəsində isə müdafiə xərclərinin daha 260 milyon lari (təqribən 93 milyon ABŞ dolları) artırılması nəzərdə tutulub. Gələn ilin dövlət büdcəsində müdafiə xərcləri 1 milyard 260 milyon lari nəzərdə tutulub ki, bu da cari ilin təsdiq olunmuş büdcəsindən 257,6 milyon lari çoxdur. Artım qarşıdakı illərdə də davam edəcək.

C.Burçuladze bildirib ki, nazirlik ilk növbədə, kibertəhlükəsizliyin idarə olunması sistemini yaradacaq. Bununla əlaqədar, Böyük Britaniya və digər tərəfdaşlar ölkələrlə tədbirlər görülür.

Nazirin sözlərinə görə, müdafiə xərclərinin artırılması nazirliyə silahlı qüvvələrin modernləşdirilməsi ilə bağlı yeni layihələrə başlamağa imkan verəcək.

## Rusiya nüvə silahı təlimləri keçirib



Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri Sergey Şoyqunun strateji çəkindirici qüvvələrin təlimi barədə məruzəsini qəbul edib.

Oktyabrın 26-da Rusiya düşmənin nüvə zərbəsinə cavab olaraq yerüstü, dəniz və aviasiya silahlarından genişmiqyaslı nüvə zərbəsi endirilməsinə dair təlimlər keçirib.

Rusiya Prezidenti Vladimir Putin Kremldəki kabinetindən videoəlaqə vasitəsilə müdafiə naziri Sergey Şoyqu və Baş qərargah rəisi Valeri Gerasimovun məruzəsini dinləyib.

Kremldən bildiriblər ki, strateji çəkindirmə təlimlərində qarşıya qoyulan vəzifələr yerinə yetirilib, ballistik və qanadlı raketlərin hamısı hədəfinə çatıb.

## Cənubi Koreyada 2050-ci ilədək pilotsuz gəmilər komandanlığı yaratmaq planlaşdırılır



Koreya Respublikasının Hərbi Dəniz Qüvvələri 2040-cı illərin sonunadək pilotsuz təyyarələr, gəmilər və sualtı qayıqlara malik komandanlıq yaratmaq planlarını nəzərdən keçirir.

Yonhap informasiya agentliyi bu barədə ölkənin Hərbi Dəniz Qüvvələrinin parlamentdə hesabatına istinadla məlumat yayıb.

Hesabata əsasən, üç donanmadan birinin komandanlığı ləğv olunaraq onun yerini təklif edilən struktur tutacaq. Cənubi Koreya ordusu, eyni zamanda, 2040-cı illər ərzində donanmada qulluq edən çağırışçıların sayının hazırda mövcud olan 37,1 faizdən 20 faizə endirmək niyyətindədir.

**AZƏRTAC-ın materialları əsasında**

## Tibb xidməti

# "Əsgərlərimizin sağlamlığı üçün çalışırıq"



Müdriklərdən biri deyib: "Sağlamlıq da yaxşı dost kimidir, qədrini itirəndən sonra bilirsən". Bu müdrik deyimi fikir süzgəcindən keçirəndə aydın olur ki, həyatımızın bütün anlarında səhhətimizin qeydinə qalmalıyıq. Deməli, bu şirin nemət hamımız üçün vacib şərtdir, həyatda yaşamağımızı təmin edən başlıca amildir, ömrümüzün sönməyən çırağıdır. Hərbçinin sağlam olması daha vacibdir. Çünki o, Vətəni yadelli düşmənlərdən qoruyur, yurdun keşiyini çəkir. Buna görə də komandanlıq daim şəxsi heyətin sağlamlığının qeydinə qalır. Sevindirici hal odur ki, bu gün zabit və əsgərlərimizin Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirdikləri hərbi hissə və birləşmələrdə zəruri tibbi avadanlıqlarla təmin olunmuş məntəqələr fəaliyyət göstərir. Məntəqələrdə çalışan həkim və mütəxəssislər bu qurğu və avadanlıqların köməkliyi ilə şəxsi heyətə yüksək səviyyədə tibbi xidmət göstərirlər.

"N" hərbi hissəsində şəxsi heyətin sağlamlığı keşiyində dayanan həkimlərlə görüşdük. Onlardan eşitdiyimiz xoş sözlərdən iftixar hissləri keçirdik. Tibb məntəqəsinə daxil olanda səliqə-sahman və təmizlik gördük. Təbiidir ki, təmiz və səliqəli yerdə müalicə alan hərbçinin sağlamlığı daha tez bərpa olunur.

İlk olaraq tibb məntəqəsinin rəisi, tibb xidməti baş leytenantı Fərhad Novruzovla görüşdük. Öyrəndik ki, baş leytenant Fərhad Novruzov Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bitirib. 2018-ci ildən hərbi həkim kimi xidmətdədir. Tibb məntəqəsinin rəisi üzərinə düşən vəzifələrdən söz açaraq dedi ki, şəxsi heyətin sağlamlığı keşiyində dayanmaq bizim üçün böyük şərəfdir. "Başlıca amalımız zabit və əsgərlərimizin sağlamlığının qayğısına qalmaqdır. Bu istiqamətdə üzərimizə düşən xidməti vəzifələrin öhdəsindən layiqincə gəlirik. Amalımıza çatmaq üçün bütün bacarıq və imkanlarımızı səfərbər edirik. Çalışırıq, əsgərlərimiz daim fiziki cəhətdən sağlam olsunlar ki, komandirlərin verdiyi əmr və tapşırıqların öhdəsindən bacarıqla gəlsinlər. Keçirilən praktiki təlim-məşqlərdə, nəzəri dərslərdə fəallıq göstərsinlər, təcrübə və peşəkarlıqlarını artırsınlar.

İşimizi təkcə müayinə və müalicə ilə bitmiş hesab etmirik. Xəstəliklərin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər də həyata keçiririk. Daim şəxsi heyət arasında müxtəlif mövzularda maarifləndirmə işləri aparır, sanitar-gigiyenik qaydalara əməl olunmasının zəruriliyini dönə-dönə əsgərlərin diqqətinə çatdırırıq", - deyə tibb xidməti baş leytenantı bildirdi.

Tibb xidməti baş leytenantı Fərhad Novruzov İkinci Qarabağ müharibəsində də iştirak edib. Həkim kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Həmin günlərdən söz açan həkim dedi ki, erməni təxribatı nəticəsində torpaqlarımızın azadlığı uğrunda müharibə başlanan kimi bütün tibb heyətilə cəbhə bölgəsinə yollandıq. "Cəbrayıl rayonundan başlanan döyüş yolumuz Füzulidən, Xocavənddən, Qubadlıdan keçərək Şuşada tamamlandı. Döyüşlərin ilk günlərindən həkim və tibb qardaşları ilə birlikdə yaralılara ilkin tibbi yardım göstərdik. Yüngül yaralananları səhra tibb məntəqəsində müalicə edik. Ağır yaralıları isə ilkin tibbi yardım göstərəndən sonra hospitala çatdırdıq. Döyüşlərdə zabit və əsgərlərimizlə bərabər həkim və tibb qardaşları da üzərlərinə düşən tapşırığın öhdəsindən bacarıqla gəlirdilər. Onların bacarıqlı fəaliyyəti sayəsində yaralıları xilas edə bilirdik".

Əks-hücum əməliyyatlarında fərqlənən tibb qardaşlarından gizirlər Ramal Qasımov, Murad Niftəliyev, Dilqəm Qaraşov və başqalarının adlarını çəkmək istərdim. Onlar üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldilər və bu gün də xidmətlərini uğurla davam etdirirlər".

Tibb xidməti baş leytenantı Fərhad Novruzov İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Zabit Fərhad Novruzov məntəqədə müalicə olunan əsgər İsrafil Muquşovu təkrar müayinə edərək ona zəruri tövsiyələr verdi. Əsgər dedi ki, burada müalicəmiz üçün hərtərəfli şərait var. Ona görə də tez bir zamanda sağlamlığımızı bərpa edib xidmətə qayıdırıq.

Tibb məntəqəsində eşitdiyimiz xoş sözlərdən əmin olduq ki, burada çalışan tibb işçiləri şəxsi heyətin sağlamlığını daim diqqət mərkəzində saxlayırlar. Sağlamlıq isə yaşamımızı təmin edən başlıca amildir.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Şagirdlərin Hərbi Dəniz Qüvvələrinə ekskursiyası





Yeniyetmələrin dünyaduyumunun formalaşmasında bu və ya digər müəssisəyə ekskursiyaların da böyük əhəmiyyəti olur. Son illərin ictimai-siyasi hadisələri vətənpərvərlik duyğularını daha da dönməzləşdirir, xalqın, bu sıradan məktəblilərin orduya sevgisinin, deməli, Vətənə sevgisinin sabahlarının mahiyyətini müəyyənləşdirir. Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı Zəfərdən sonra yeniyetmələri gəncləşdirən, gəncləri Vətənə daha dərin mənəvi-psixoloji amillərlə bağlayan Vətən sevgisi orduya məhəbbətin stimuluna çevrilib.

Bakı şəhərindəki 274 saylı orta məktəbdə hərbi vətənpərvərlik tərbiyəsinə ciddi diqqət yetirilir. Məktəbdə təkcə yuxarı sinif şagirdlərinin deyil, aşağı sinif şagirdlərinin də dünyaduyumunun formalaşmasında hərbi vətənpərvərlik tərbiyəsi fənn səviyyəsində diqqətdə saxlanılır.

2020-ci ildə qazandığımız Zəfərdən sonra məktəblilərin bu və ya digər hərbi hissəyə ekskursiyası ayrı-ayrı məktəblərin ənənəsinə çevrilib. 274 saylı orta məktəbin 2-ci sinif şagirdlərinin Hərbi Dəniz Qüvvələrinə ekskursiyası heç zaman unudulmayacaq. Dənizçilər düşüncələrində bu yaşda uşaqların marağını yaşadacaq, şagirdlər dənizçilərdən eşitdiklərini, gəmilərin göyərtəsində motrosların dənizçi-hərbçi peşəsi haqqında danışdıqlarını. Kim bilir, bu şagirdlərin sırasından neçəsi gələcəkdə hərbçi-dənizçi olacaq!..

**"Azərbaycan Ordusu"**

# İdman

## Cüdoçularımız Sloveniyada beynəlxalq turnirdə fərqləniblər



Sloveniyanın Slovenc Qradek şəhərində cüdo üzrə sayca 46-cı açıq turnir keçirilib.

Yeniyetmələr (U-15 və U-18) arasında keçirilən beynəlxalq yarışda medallar uğrunda 22 ölkədən 602 idmançı mübarizə aparıb.

Azərbaycan cüdoçuları 4 qızıl, 3 gümüş və 1 bürünc medal qazanaraq qızlar arasında birinci, ümumi komanda hesabında isə ikinci yerdə qərarlaşıblar. Belə ki, 15 yaşadək cüdoçu qızlar arasında Nuranə Hacızadə (48 kq) gümüş, Vüsalə Hacıyeva qızıl, Aytən Verdiyeva gümüş, Aysun Məmmədova (hər üçü 52 kq) bürünc medal qazanıb. On səkkiz yaşadək qızların yarışında isə Məryəm Bayramzadə (40 kq), A.Verdiyeva və Fidan Qasımova (57 kq) qızıl medala sahib olublar. Bu yaş qrupunda V.Hacıyeva gümüş medal əldə edib.

Qeyd edək ki, idmançılarımız oktyabrın 24-26-da Sloveniyada təşkil olunacaq təlim-məşq toplanışına qatılacaqlar.

## Azərbaycan triatlonçusu Afrika kuboku yarışında birinci olub



Azərbaycan triatlonçusu Rostislav Pevtsov Afrika kuboku yarışında qızıl medal qazanıb. Atletimiz Mərakeşin Tanjir şəhərində təşkil olunan yarışda sprint məsafədə 43 idmançı arasında fərqlənərək 750 metrlik üzgüçülük, 20 kilometrlik velosiped sürmə, 5 kilometrlik qaçış məsafəsini 53 dəqiqə 3 saniyəyə qət edib.

İdmançımızla rəqabət aparan Almaniya təmsilçisi Yanik Şafler ikinci yerlə kifayətlənib. Fəxri kürsünün üçüncü pilləsində ispaniyalı Anxel Sançez Kareas qərarlaşıb.

## Cüdoçumuz "Böyük dəbilqə" turnirində bürünc medal qazanıb



Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində start götürən "Böyük dəbilqə" turnirində cüdoçumuz Zelim Tçkayev (81 kq) bürünc medal qazanıb.

Tatami ustası üçüncü yer uğrunda görüşdə Abılayxan Jubanazar (Qazaxıstan) üzərində qələbə qazanıb.

Xatırladaq ki, bundan əvvəl komandamızın üzvü Balabəy Ağayev (60 kq) də bürünc medal qazanmışdı.

Azərbaycan "Böyük dəbilqə" turnirində 13 idmançı ilə təmsil olunub.

## Azərbaycan komandası qol güləşi üzrə dünya çempionatında 10 medal qazanıb



Antalyada qol güləşi üzrə 43-cü dünya çempionatı keçirilib. Çempionatda 54 ölkədən 1000-dən çox idmançı gücünü sınayıb.

Azərbaycan idmançıları yarışda 1 qızıl, 6 gümüş və 3 bürünc olmaqla, ümumilikdə 10 medal qazanıblar.

Tərxan Müzəffərov (sağ qol, +90 kq) qızıl, İsmayıl Mustafayev (sol qol, 60 kq), Səid Mustafazadə (sol qol, 65 kq), İbrahim Cəlilov (sağ qol, 45 kq), Rəşad Quluzadə (sağ qol, 70 kq), Vilayət Namazzadə (sağ qol, 60 kq), İsmayıl Mustafayev (həm böyüklər, həm də gənclər kateqoriyası, sol qol, 60 kq) gümüş, Rüfət Mustafayev (sol qol, 50 kq), Rəşad Quluzadə (sol qol, 70 kq), Tərxan Müzəffərov (sol qol; +90 kq) bürünc medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 973
Nüsxə 4740